● Ölməzliyə qovuşanlar

# Vətən sevgisi onu şəhidlik zirvəsinə yüksəltdi

**Yurdu erməni qəsbkarlarının işğalına məruz qalanda o, hələ çox kiçik idi. 1991-ci il mayın 16-da Laçın rayonunun Dəyhan kəndində dünyaya gələn Elgün Abbaslının o vaxt bir yaşı vardı. Dünyanın ən gözəl yerlərindən biri olan Laçının mərd, igid övladları düşmənə müqavimət göstərsələr də, havadarlarından hər cür yardım alaraq silahlanmış ermənilər Azərbaycanın əzəli torpaqlarını, qədim yurdlarını ələ keçirdilər.**



1992-ci ilin mayında Laçın təcavüzkar ermənilər tərəfindən işğal olundu. O zaman balaca Elgün ailəsi ilə birlikdə məcburi köçkün kimi Sumqayıt şəhərinə gəlib, Sarıqaya qəsəbəsində məskunlaşdılar.

Elgün evin kiçiyi, iki qardaşın balacası idi. Onlar hələ uşaq olduqları üçün bu ayrılığın nə qədər ağır olduğunu, onları çətin günlərin gözlədiyini dərk etmirdilər. Ailənin böyükləri isə isti ocaqlarını, dədə-baba yurdlarını tərk etmək məcburiyyətində qalanda bu ayrılığın çox uzun çəkəcəyini güman etmirdilər. Ancaq onlar məcburi köçkün kimi otuz ilə yaxın Sumqayıtda Sarıqaya qəsəbəsində yaşamalı oldular...

O vaxtdan Ermənistanın işğalı nəticəsində ayrı düşdükləri Laçın rayonunun Dəyhan kəndini, orda qalan evlərini arzulamadan, pərən-pərən düşmüş yurddaşlarını düşünmədən keçən bir günləri belə olmadı. Elgüngil də bu nisgillə böyüdülər. Yəqin ki, Elgün Abbaslının uşaq yaşlarından hərbçi peşəsinə marağının böyük olmasında bu həsrət, doğma yurdunu azad, Vətənini bütöv görmək arzusu başlıca səbəb idi.

Elgün orta məktəbi başa vurduqdan sonra əsgəri xidmətə yollandı. Qəlbindəki vətənpərvərlik duyğuları onu hərbçi olmağa istiqamətləndirdi. O, hərbi xidmət müddəti bitdikdən sonra, 2014-cü ildə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu oldu. Elgün Abbaslı hərbi xidmətini davam etdirdi. Pirəkəşküldə yerləşən hərbi hissədə, tibb bölüyündə qulluq etdi.

İşğalçı Ermənistanın silahlı qüvvələrinin növbəti təxribatı 2020-ci il, sentyabrın 27-də müharibənin başlanması ilə nəticələndi. Azərbaycan Silahlı Qüvvələrinin MAHHXHQ əsgəri olan Elgün Abbaslı da Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərinin azadlığı uğrunda gedən ağır döyüşlərdə iştirak etdi.

İkinci Qarabağ müharibəsində ağır döyüşlərin davam etdiyi günlərdə Ermənistan silahlı qüvvələri yenə də öz məkrlərini göstərirdilər. Müharibənin qaydalarına riayət etməyən düşmən təcili tibbi yardım maşınını da atəşə tuturdu. MAHHXHQ əsgər Elgün Abbaslı Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Laçının azadlığı uğrunda gedən döyüşlərdə vuruşdu, yaralıları döyüş meydanından çıxardı. Elgün noyabr ayının əvvəllərindən başlayan Şuşa döyüşlərində də şücaətlə iştirak etdi. Onun içərisində olduğu maşın 2020-ci il noyabrın 10-da Şuşa istiqamətində Ermənistanın silahlı qüvvələrinin bölmələri tərəfindən atəşə tutuldu. Əsgər Elgün Abbaslı yaralansa da, geri çəkilmədi. Elgün şəhid olmuş komandirinin nəşini ərazidən çıxararkən özü də şəhidlik zirvəsinə ucaldı. Sumqayıt Şəhidlər xiyabanında dəfn olundu.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, əzəli torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüş əməliyyatlarında igidlik, şücaət göstərmiş Elgün Ağayar oğlu Abbaslı ölümündən sonra Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olundu.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 1 iyun, № 114.- S.11.